

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 12 (21.164)

*20 yanvar 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Yaponiyanın Xarici İşlər nazirinin müavini Minoru Kiuçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin inkişafının razılıq doğurduğunu vurğuladı. Ölkələrimiz arasında siyasi münasibətlərin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev bu münasibətlərin digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı əsas yaratdığını qeyd etdi. Yaponiya şirkətlərinin iştirakı ilə Azərbaycanda həyata keçirilən layihələrin önəmini qeyd edən dövlətimizin başçısı kənd təsərrüfatı, texnoparkların və neft-kimya komplekslərinin yaradılması, yüksək texnologiyalar və informasiya texnologiyaları sahələrində əməkdaşlıq üçün də yaxşı imkanların olduğunu dedi.

Yaponiyanın Xarici İşlər nazirinin müavini Minoru Kiuçi Yaponiyanın Azərbaycan ilə əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, texnoparkların və neft-kimya komplekslərinin yaradılması, yüksək texnologiyalar, informasiya texnologiyaları və digər sahələrdə genişləndirilməsində maraqlı olduğunu dedi.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Yanvarın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qars Qafqaz Universitetinin rektoru, professor doktor Sami Özcanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri Qars Qafqaz Universitetinin bölgədə elmin və təhsilin inkişafına mühüm töhfələr verdiyini qeyd etmişdir. Qardaş Türkiyənin universitetləri ilə əlaqələrin genişləndirilməsinin vacibliyinə diqqəti çəkən Ali Məclisin Sədri Naxçıvan Dövlət Universiteti ilə Qars Qafqaz Universiteti arasındakı səmərəli elmi əməkdaşlığın məmnunluq doğurduğunu bildirmişdir.

Ali Məclisin Sədri universitetlərarası əlaqələrin inkişafına verdiyi töhfəyə görə Qars Qafqaz Universitetinin rektoru Sami Özcana təşəkkürünü bildirmişdir.

Nümayəndə heyətinə göstərilən səmimi münasibətə görə Ali Məclisin Sədrinə minnətdarlıq edən Sami Özcan demişdir ki, Naxçıvan Muxtar Respublikasındakı müasir təhsil infrastrukturu universitetlər arasındakı əlaqələrin yeni istiqamətlər üzrə inkişafını şərtləndirir. Qars Qafqaz Universiteti ilə muxtar respublikanın ali təhsil ocaqları arasındakı əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verdiyini qeyd edən rektor gələcəkdə də bu istiqamətdə ardıcıl tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırmışdır.

Görüşdə elm və təhsil sahəsindəki əlaqələrin perspektivi ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikamızda 20 Yanvar faciəsi ilə bağlı tədbirlər keçirilib



*Naxçıvan Özəl Universitetində "20 Yanvar yaddaşlardan silinməyən tarixdir" mövzusunda keçirilən konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Rektor çıxışında qeyd edib ki, 20 Yanvar tariximizə faciəvi günlərdən biri kimi düşsə də, əslində, bu gün xalqımızın qəhrəmanlıq tarixinin bir parçasıdır. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalqımız hər il yanvarın 20-də Şəhidlər xiyabanına üz tutur, azadlığımız uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsini dərin ehtiramla yad edir.

Sonra "XX yüzilliyin 80-90-cı illərində Azərbaycanda ictimai-siyasi vəziyyət – 20 Yanvar" mövzusunda universitetin Ümumi tarix kafedrasının dosenti Vaqif Hüseynovun, "20 Yanvar Azərbaycan ədəbiyyatında" mövzusunda Azərbaycan dili və ədəbiyyatı kafedrasının dosenti Rafiq Babayevin, "Qanlı yanvar hadisələri dünya mətbuatında" mövzusunda həmin kafedranın müdiri, filologiya üzrə fəlsəfə doktoru Nüşabə Məmmədovanın məruzələri dinlənilib. Məruzələrdə qeyd edilib ki, təpədən dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirmədi, əksinə, haqq səsini daha ucadan bəyan etdi. SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Bakıda misli görünməmiş faciə ilə nəticələndi. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları o müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Sonra universitetin tələbələri 20 Yanvar faciəsinə həsr olunan şeirləri bədii qiraət ediblər. Qanlı yanvar haqda slayd nümayiş etdirilən konfransın sonunda fakültələrdə yaradılmış 20 Yanvar hadisələri ilə bağlı sərgilərə baxış olub.

*Naxçıvan Müəllimlər İnstitutunda da 20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunan tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları faciə qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.*

Tədbiri giriş sözü ilə açan institutun rektoru, professor Oruc Həsənli 20 Yanvar faciəsinin səbəbləri və ağır nəticələri barədə danışıb, hadisəyə siyasi-hüquqi qiymət verilməsində, şəhidlərin xatirəsinin əbədiləşdirilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib.

İnstitutun kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Rövşən Vəliyevin 20 Yanvar hadisələri haqda məruzəsi dinlənilib. Məruzədə qeyd olunub ki, 20 Yanvar faciəsinə ilk dəfə öz etirazını bildirən ümummilli liderimiz Heydər Əliyev 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək keçirdiyi mətbuat konfransında xalqımıza qarşı həyata keçirilmiş bu cinayəti pisləyib, əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi ittiham edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderin təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq Yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılıb, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunub. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkəmizdə yenidən hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib.



Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirin sonunda şəhidlərin xatirəsinə həsr olunmuş slayd nümayiş etdirilib.

* * *

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında keçirilən tədbiri giriş sözü ilə şuranın sədri Sucaxan Novruzov açaraq bildirib ki, yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq qaldığını və azad yaşamağa layiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu ağrılı-acılı günlər həm də sınaq dövrü kimi yadda qaldı. Ancaq əfsuslar olsun ki, başları hakimiyyət uğrunda mübarizəyə qarışmış siyasətbazlar xalqımıza qarşı törədilmiş bu ağır cinayətin səbəblərinin araşdırılması, ona siyasi-hüquqi qiymət verilməsi və cinayətkarların müəyyən edilməsi istiqamətində məqsədyönlü iş aparmadılar. Məhz ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə bu faciəyə ilk siyasi-hüquqi qiymət verildi.

Tədbirdə şuranın əməkdaşlarından Səbuhi Hüseynov, Yəmən Rzayeva, Ceyhun Məmmədov, Eyvaz Əsgərov və başqaları çıxış edərək bildiriblər ki, haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. 1990-cı ilin 20 Yanvarı elə şanlı tarixdir ki, qərinələr, əsrlər keçsə də, xalqımızın yaddaşından silinməyəcək, həmişə yad ediləcəkdir.

## 20 Yanvara həsr olunmuş bir dərs saatı



1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə həm faciə, həm də xalqımızın qəhrəmanlıq salnaməsi, qürur günü kimi daxil olub. Həmin gün şəhidlik zirvəsinə ucalan Vətən övladları bir daha sübut etdilər ki, Azərbaycan xalqı yenilməzdir, azadlıq, müstəqillik yolundan onu heç bir qüvvə döndərə bilməz. 20 Yanvar faciəsindən 25 il ötür. Ancaq qədirbilən xalqımız həmin günün dəhşətlərini yaddan çıxarmır, azadlıq mücadiləsində canından keçən şəhidlərimizi böyük ehtiramla yad edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Tədbirlər Planına uyğun olaraq, dünən muxtar respublikamızın orta ixtisas və ümumtəhsil məktəblərində 20 Yanvar faciəsinə həsr olunmuş dərs saatlarında da bu fikirlər səsləndirilib. Dərslərdə həmin faciə şagird və tələbələrə bir daha xatırladılıb. Ulu öndər Heydər Əliyevin 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verməsi və onun dünya ictimaiyyətinə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən danışılıb. Qeyd olunub ki, dahi rəhbərin siyasi kursu bu gün ölkə başçısı tərəfindən uğurla davam etdirilir.

**Xəbərlər şöbəsi**



# 20 Yanvar faciəsindən 25 il ötür



***20 Yanvar uzun illər sovet imperiyasının əsarətində yaşayan Azərbaycan xalqının azadlıq səsini şərəflə ucaltdığı, torpaq bütövlüyü, öz suverenliyi uğrunda qəhrəmanlıq, mərdlik nümayiş etdirdiyi şərəf tarixidir.***

Xalqımızın qan yaddaşına əbədi həkk olunan 20 Yanvar faciəsi sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı, ümumilikdə, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixdə qalacaqdır. Öz azadlığı, ərazi bütövlüyü, doğma torpaqları uğrunda mübarizəyə qalxan insanlara divan tutulması, yüzlərlə günahsızın qətlə yetirilməsi sovet rejiminin təhdid və hədədən ibarət cinayətkar mahiyyətini bir daha bütün dünyaya açıb göstərdi.

20 Yanvara gedən yol ermənilərin Dağlıq Qarabağa əsassız ərazi iddiaları ilə başlanmışdır. SSRİ rəhbərliyinin ermənipərəst mövqe tutması, onların ərazi iddiasını təmin etməsi və azərbaycanlıların hüquqlarının tapdalanması Bakıda yerli əhali tərəfindən narazılıqla qarşılanmışdır. Xalqın səsini boğmaq üçün "Mərkəz" tərəfindən silahlı ordudan istifadə qərarı verilmişdir. Bununla onlar guya qiyamı yatırmaq və azadlıq hərəkatının imperiyanın digər bölgələrinə keçməsinin qarşısını almaq istədilər. Və Bakıya əliyalın əhali üzərinə o dövrün ən müasir silahları, texnikası ilə təchiz olunmuş qoşun yeridildi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə – sovet rəhbərliyinin Bakıda terror aktı törətdiyi bir vaxtda Azərbaycan işğalçı Ermənistanın təcavüzü ilə üz-üzə qalmışdı. Qarabağda hadisələr günü-gündən şiddətlənir, Ermənistandan azərbaycanlılar kütləvi şəkildə deportasiya edilir, öz doğma ocaqlarından didərgin salınırdılar. Belə bir vaxtda sovet hökuməti münaqişənin qarşısını almaq, Ermənistanı işğalçılıq iddialarından çəkindirmək əvəzinə Azərbaycana qoşun hissələri yeridərək günahsız insanları qırdı. Bu qanlı hadisənin törədilməsində əsas məqsəd öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularının qarşısını almaq idi. Lakin sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi, milli qürurumuzu qıra bilmədi. Əksinə, xalqımızın başına gətirilən bu cinayət sovet imperiyasının iç üzünü açdı və imperiyanın Bakıda bu qanlı hadisəni törətməklə ittifaqa üzv olan digər respublikalara gözdağı vermək planı, imperiyanı zor gücünə qoruyub saxlamaq təşəbbüsü boşa çıxdı.

Həmin gecə Azərbaycanda günahsız insanların güllləbaran edilməsi əməliyyatı SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin xüsusi təyinatlıları və SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Azərbaycana göndərilən ordu hissələrinin tərkibinə, əsasən, Stavropoldan, Rostovdan, Krasnodardan səfərbər edilmiş erməni zabit və əsgərləri, hərbi məktəblərdə təhsil alan erməni kursantları cəlb edilmişdi. 20 Yanvar hadisələrinin canlı şahidləri xatırlayır ki, Bakıya yeridilən qoşun hissələrinin tərkibindəki ermənilərdən ibarət dəstələr xüsusi amansızlıqla dinc əhaliyə divan tuturdular. Ermənilərdən ibarət dəstələrin bu qoşun birləşmələrinin tərkibinə daxil edilməsi Moskvanın müstəqillik, azadlıq arzusu ilə ayağa qalxan Azərbaycan xalqından qisas almaq üçün qurduğu cinayətkar planın bir hissəsi idi.

20 Yanvar faciəsi zamanı 147 nəfər Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz həbs edilmişdir. Terror əməliyyatı zamanı yaşayış evləri atəşə tutulmuş, təcili yardım maşınları, yol kənarında dayanan avtomobillər tankların altına salınıb əzilmiş, yaralılara yardım göstərən tibb işçiləri güllələn-

## Şərəf, qürur və qəhrəmanlıq tariximiz

mişdir. Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Ovaxtkı sovet imperiyasının ideoloji təbliğatçısı olan "Pravda" qəzeti isə 22 yanvar tarixli nömrəsində əsl həqiqətləri təkzib edir və yazırdı: "Fövqəladə vəziyyət elan edilməsi üçün görülmüş tədbirlər nəticəsində guya qadınlar və uşaqların tələf olması barədə bəyanatlar aşkar fitnəkar xarakter daşıyır. Bir daha təkrar etmək lazımdır ki, bu, qərəzli yalandır! Məqsəd əhalini sovet ordusuna və hüquq-mühafizə orqanlarına qarşı qaldırmaqdır..."

Nə sovet rəhbərliyinin bu qırğını gizlətmək cəhdi, nə də imperiyanın mərkəzi mətbuat orqanının qərəzli informasiyaları bir həqiqəti dəyişdirə bildi. Bu da ondan ibarət idi ki, sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın müddəalarını pozmuşdur.

1990-cı il yanvarın 20-də sovet qoşunlarının Bakıda törətdikləri qanlı cinayətlər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə sovet-erməni silahlı dəstələrinin intensiv hücumu ilə müşayiət olunmuşdur. 20 Yanvar faciəsinə qədər artıq Naxçıvanın Ermənistanla sərhədində ermənilər rus qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçmişdilər. Bakıda və Azərbaycanın digər bölgələrində sovet ordusunun törətdiyi qanlı cinayətlərlə Naxçıvana erməni hücumunun zaman etibarı ilə üst-üstə düşməsi hadisələrin eyni mərkəzdən idarə olunduğunu sübut edirdi. Hətta ermənilərin Naxçıvana hücumunun Bakıda 20 Yanvar faciəsinin törədilməsindən bir gün tez baş verməsi həm Bakı faciəsinin, həm də Naxçıvanın işğalına edilən cəhdin eyni düşmən planının tərkib hissəsi olduğuna şübhə yeri qoymurdu.

Ermənilərin muxtar respublikaya ilk mütəşəkkil hücumu 1990-cı il yanvarın 18-dən 25-dək Sədərək kəndi istiqamətində olmuşdur. Heç kimdən kömək görməyən, blokadaya alınmış Naxçıvan əhalisi adamlarda qalan ov tüfəngləri ilə düşmənlə mübarizə aparmış, muxtar respublikanı işğal olunmaq təhlükəsindən qoruyub saxlaya bilmişdir.

Yanvar hadisələrindən sonra Bakıda və bir sıra rayonlarda tətbiq edilən fövqəladə vəziyyət rejimi məhz bu dövrdə naxçıvanlıların torpaqlarımızın qorunması uğrunda rəşadətli mübarizəsi və həmin tarixi qərarın doğurduğu siyasi ab-hava nəticəsində muxtar respublikada tətbiq oluna bilmədi.

Həmin dövrdə Naxçıvanda baş verən hadisələri ümummilli liderimiz Heydər Əliyev belə xarakterizə etmişdir: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə ümumqoşun şəbəkəsinə daxil olan Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı. Milli istiqlaliyyət uğrunda mübarizə yollarında o zaman Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi… Naxçıvanlıların bu cəsarətli addımı o vaxt yeganə bir addım idi".***

Qanlı yanvar faciəsindən sonra bu hadisəyə verilən reaksiyalar və ya ümumiyyətlə, hadisəyə münasibət bildirilməməsi kimin kim olduğunu və kimin hansı məqsədə xidmət etdiyini tam aydınlığı ilə göstərdi. Xalq o günlərdə böyük bir həqiqəti – meydanda həqiqi liderin olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş günlərdə xalqımızın böyük oğlu Heydər Əliyevin – qüdrətli liderin respublikada yoxluğu günün ən ağır həqiqəti kimi dərk olundu. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə ümummilli lider Heydər Əliyev oldu. Ulu öndərimizin Azərbaycan xalqının acısına şərik çıxması onun öz xalqına olan sonsuz məhəbbətinin ifadəsi idi. Sovet qoşunlarının Bakıda törətdiyi qanlı hadisə ilə bağlı elə ertəsi gün Azərbaycanın Moskvadakı Nümayəndəliyinə gələn görkəmli dövlət xadimi Heydər Əliyev xüsusi qəddarlıqla törədilmiş cinayətin təşkilatçılarını və icraçılarını ittiham və onların cəzalandırılmasını tələb etdi. Bu qanlı faciənin baş verməməsi üçün bütün imkanların mövcud olduğu bir şəraitdə belə bir qeyri-insani hadisənin törədilməsini pisləyən ümummilli liderimiz bu cür yollarla Azərbaycan xalqının iradəsini qırmağın mümkün olmadığını və olmayacağını açıq şəkildə bəyan etdi. Bütün təhlükələrə baxmayaraq, xalqımıza qarşı törədilmiş qanlı faciənin əsl səbəbkarlarının elə həmin gün imperiyanın mərkəzindən bütün dünyaya bəyan edilməsi xalqımızın üzləşdiyi ən çətin məqamlarda dahi rəhbər Heydər Əliyevin ümummilli mövqedən çıxış etmək cəsarətini bir daha sübuta yetirdi: ***"Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan Daimi Nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanda baş vermiş hadisələri hüquqa, demokratiyaya, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm".*** Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi – özü də imperiyanın mərkəzində, Moskvada...

Bu təkcə SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda ölkəni və onun başçısını paytaxtın özündə tənqid etmək deyildi, bu, sözün əsl mənasında, böyük hünər və cəsarət idi. Ulu öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etiraz etdiyini, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü söyləmiş, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etmişdir. Xalqımızın böyük oğlu Heydər Əliyevin 20 Yanvar hadisələri ilə bağlı Azərbaycan xalqına göndərdiyi teleqramda deyilirdi: ***"Bakı şəhərinə sovet ordu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".***

Həmin ilin iyul ayında ulu öndər Moskvadan doğma Vətəninə qayıtdı. O dövrdə ölkəmiz parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Görkəmli dövlət xadimi Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da ovaxtkı hakimiyyət tərəfindən təzyiq və hədələr göstərilirdi. Buna baxmayaraq, ulu öndərimiz Vətənə döndü. Dahi rəhbərin öz xalqına olan sevgisi, xalqın da ona inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

O illərdə 20 Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymət ulu öndərimizin rəhbərliyi ilə Naxçıvanda verildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında ümummilli liderimiz Heydər Əliyev tərəfindən hazırlanan və onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilmiş, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilmişdir. Həmin tarixi sənəddə deyilirdi: ***"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır. Qanlı yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq heç bir tədbir görülməmişdir. Yanvar ayının 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş, yanvar hadisələrinə siyasi qiymət verməli olan həmin sessiya bu günədək öz işinə başlamamış, sonrakı sessiyalarda da bu məsələyə baxılmamışdır. Qəribədir ki, respublika Ali Sovetinin yanvar hadisələrini təhqiq etməli olan komissiyanın işi də başa çatdırılmamışdır".***

Qərarda 1990-cı ilin yanvar ayında Bakı şəhərində törədilmiş qanlı hadisələr Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilmiş, dinc əhaliyə, silahsız kütləyə, heç bir müqavimət göstərməyən günahsız adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə zorakılıq edilməsi, qocaların, qadınların, uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilmiş, bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı faciələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, qanlı hadisələrin günahkarlarının aşkara çıxarılıb qanuni məsuliyyətə verilməməsinə qəti etiraz olunmuşdur.

Bu tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması qərara alınmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılmış, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunmuşdur. Lakin təəssüflər olsun ki, 1991-1993-cü illər ərzində hadisəyə ölkə səviyyəsində siyasi-hüquqi qiymət verilməmişdir.

Yalnız ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmiş, ümummilli liderimiz Şəhidlər xiyabanını ziyarət edərkən burada qısa müddətdə memorial kompleksin ucaldılması ilə bağlı tapşırıq vermişdir. 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı ulu öndər Heydər Əliyevin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunurdu. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz ümummilli liderimizin təşəbbüsü ilə mümkün olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Süquta məhkum olmuş sovet rejimi son günlərində bütün tarixi boyu törətmiş olduğu cinayətlər sırasına misli görünməmiş bir vəhşilik aktı da əlavə etdi. Həmin gün sovet ordusu hissələri heç bir xəbərdarlıq edilmədən Bakı şəhərinə, eləcə də Azərbaycanın bir sıra digər şəhər və rayonlarına yeridilərək, Ermənistanın respublikamıza qarşı ərazi iddialarının SSRİ rəhbərliyi tərəfindən açıq-aşkar dəstəklənməsinə***

*Ardı 3-cü səhifədə*

***və ozamankı Azərbaycan rəhbərlərinin xəyanətkar siyasət yeritməsinə etiraz əlaməti olaraq ayağa qalxmış Azərbaycan xalqına vəhşicəsinə divan tutdu. Öz Konstitusiya hüquqlarının bərqərar edilməsi tələbi ilə çıxış edən dinc, silahsız əhali güllələbaran edildi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi. Sovet rejiminin bu qanlı terror aktı bütün dünyada qətiyyətlə pislənildi. 20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar”.*** Dövlət başçısı tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, əlil olanların sosial müdafiəsinin gücləndirilməsi üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, ölkə Prezidentinin “20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2006-cı il 19 yanvar, “1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2011-ci il 19 yanvar tarixli fərmanları ilə bu kateqoriyadan olan insanlara göstərilən dövlət qayğısı daha da artırılmışdır. Həmçinin Bakı şəhərinin Yasamal rayonundakı “20 Yanvar” dairəsində şəhidlərin xatirəsinə memorial abidə kompleksi ucaldılmışdır.

20 Yanvar faciəsindən 25 il ötür. Əbədi, dönməz və sarsılmaz müstəqilliyimizin işığında yaşayan xalqımız hər il yanvarın 20-də Şəhidlər xiyabanına üz tutur, azadlığımızın qandallarını sındırmış şəhidlərimizi ehtiramla yad edir, xatirəsini əziz tutur. Dövlət başçısının dediyi kimi: ***“Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq. Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır”.***

Bəli, şəhidlər heç vaxt unudulmayacaq. Onlar xalqın azadlığı yolunda canlarından keçməyə hazır olduqlarını göstərdilər və bu yolu qəhrəmanlıqla qət etdilər. Ölümə gedən yollar onları ölməzliyə, əbədiyyətə, xalqımızı isə əbədi azadlığa qovuşdurdu.

1990-cı ilin Yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin gecə şəhid olan övladlarımız Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar. Bu mənada yaddaşımızda əbədiləşərək azadlıq abidəsinə, qəhrəmanlıq nümunəsinə çevrilən 20 Yanvar faciəsi şərəf, qürur və qəhrəmanlıq tariximizdir.

**“Şərq qapısı”**



# Qüdrətli Azərbaycan Ordusu ölkəmizin qarantıdır

## *Faciələrimiz məhz güclü ordumuz olmadığı üçün baş verib*

***Azərbaycan xalqı 20 Yanvar faciəsinin ildönümünü qeyd edir. Reallıq budur ki, əgər həmin illərdə biz müstəqil bir dövlət olsaydıq, 1990-cı ildə də Silahlı Qüvvələrimiz bugünkü kimi yüksək döyüş hazırlığına malik olsaydı, nə 20 Yanvar, nə də Xocalı faciələri baş verərdi. Ona görə də biz qürurla deyə bilərik ki, əldə etdiyimiz çoxsaylı nailiyyətlərin ən birincisi tökülən qanlar bahasına əldə etdiyimiz müstəqilliyimizdir. Biz qürurla deyirik ki, ulu öndərimiz Heydər Əliyev tərəfindən qurulan, qorunub saxlanılan müstəqil Azərbaycanın bu gün qüdrətli ordusu var. Dövlətimizin, dövlətçiliyimizin, Vətənimizin qarantı olan qüdrətli Azərbaycan Ordusu...***

Ümumiyyətlə, təkcə bu gün deyil, dünya dövlətçilik tarixi yaranandan bəri ordu, silahlı qüvvələr, müdafiə sistemi böyüklüyündən-kiçikliyindən asılı olmayaraq, bütün dövlətlər üçün xüsusi əhəmiyyət kəsb edib. Çünki bütün dövrlərdə işğalçı da olub, torpağını işğaldan təmizləmək istəyənlər də. Yəni güclü ordu formalaşdırmaq istəyənlərin biri hərbi yürüşləri nəzərdə tuturdu, digəri isə həmin yürüşlərdən müdafiə olunmağı. Biz həm də bununla fəxr edə bilərik ki, milli dövlətçilik tariximizdə ordumuz həmişə Vətənimizi müdafiə etmək missiyasını yerinə yetirib. XX əsrin əvvəlində əldə etdiyimiz dövlət müstəqilliyi illərində də, indiki müstəqillik dövrümüzdə də Azərbaycan Ordusu daim sülhə, əmin-amanlığın qorunmasına xidmət edib, ölkə ərazisinin işğaldan azad edilməsi naminə yaradılıb və formalaşdırılıb.

Tarixə nəzər salanda bir daha görürük ki, həm 1918-1920-ci illərdəki dövlət müstəqilliyimiz dövründə, həm də 70 ildən sonra həmin müstəqilliyin bərpası zamanı Azərbaycan əraziləri həmişə mənfur erməni daşnakları tərəfindən işğala məruz qalıb. Məhz bu baxımdan müstəqilliyimizin ilk illərində regionun digər dövlətlərinə nisbətən Azərbaycan daha güclü orduya ehtiyac duyurdu. Xalqın bu istəyini reallaşdırmaq, qüdrətli ordunun formalaşdırılmasına nail olmaq üçün isə dövlətə qüdrətli siyasətçinin rəhbərlik etməsi zərurətə çevrilmişdi. Həmin dahi şəxsiyyət ümummilli lider Heydər Əliyev idi.

Böyük dövlətçilik təcrübəsinə malik olan qüdrətli siyasi xadim Heydər Əliyev dövlətin, Vətənin varlığı üçün ordu quruculuğu məsələsini daim diqqət mərkəzində saxlayıb. Bu barədə danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: “Ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanın milli dövlətçiliyinin bərpası Naxçıvandan başlandığı kimi, milli ordu quruculuğu da 1991-ci ildə Naxçıvandan başlanmışdır. Böyük dövlət xadimi Naxçıvan Muxtar Respublikasının rəhbəri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi hissə və dəstələrə vahid rəhbərliyin əsasını qoymuşdur. Bu dövrdə yaradılan ilk milli ordu qurumlarından biri də 705 saylı Əlahiddə Gücləndirilmiş Motoatıcı Briqada idi. 1993-cü ildə ali hakimiyyətə qayıdan ümummilli liderimiz Azərbaycan Silahlı Qüvvələrinin yaradılması istiqamətində davamlı tədbirlər görmüşdür. Blokada şəraitində və düşmən dövlətlə sərhəddə yerləşən Naxçıvanın müdafiəsi də diqqətdə saxlanılmış, motoatıcı briqadanın bazasında diviziya, sonra isə ordu korpusu yaradılmışdır”.

Bəli, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn ulu öndər mütəşəkkil, nizami ordu quruculuğu sahəsində, Silahlı Qüvvələrin maddi-texniki təminatının artırılması istiqamətində əsaslı işlər gördü. Hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə təsərrüfat fəaliyyəti nizama salındı. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi-vətənpərvərlik tərbiyəsi gücləndirildi.

Ordu quruculuğu sahəsində varislik prinsipinə də əməl olundu, bununla, müasir dövlətçiliyimizin tarixinin 1991-ci ildən deyil, məhz 1918-ci ildən hesablanmalı olduğu həm də beynəlxalq aləmin diqqətinə çatdırılmış oldu. Belə ki, ulu öndərin 22 may 1998-ci il tarixli Sərəncamı ilə hər il 26 iyun “Silahlı Qüvvələr Günü” kimi qeyd olunur. Ordu quruculuğunun əsas tərkib hissəsi olan hərbi təhsil, ixtisaslı hərbi kadrların hazırlanması prosesi də daim diqqət mərkəzində idi. Əsası C.Naxçıvanski adına Hərbi Liseylə qoyulan hərbi təhsil müəssisələrimizin sayı nüfuzlu ali hərbi təhsil ocaqları hesabına daha da genişləndi. Ümummilli lider Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzaladı. Azərbaycan Silahlı Qüvvələri üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər 20 avqust 2001-ci il tarixli Fərman ilə müvafiq olaraq, Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırıldı. Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, hərbçilərimiz bir sıra vacib hərbi ixtisaslar üzrə təhsil almaq üçün Türkiyəyə, Rusiyaya, Ukraynaya, Pakistana, Çinə və digər ölkələrə göndərildi. Bu isə ölkəmizdə ordu quruculuğu prosesində növbəti nailiyyətlərin qazanılmasına əhəmiyyətli töhfələr verdi.



Ümummilli liderimiz ərazi baxımından Azərbaycandan aralı düşmüş Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması və burada peşəkar hərbçi kadrların hazırlanması məsələsini də diqqətdən kənarda saxlamırdı. Dahi rəhbər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qədim diyarda C.Naxçıvanski adına Hərbi Liseyin filialını açmaq barədə təşəbbüsünü bəyənərək 1998-ci il martın 13-də “Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının açılması haqqında” Sərəncam imzaladı. Tarixi sərəncamın icrası, ümumilikdə, Azərbaycanda vətənpərvər və peşəkar hərbçilərin sayının artmasına rəvac verdi.

Bu gün ulu öndərin siyasi xətti Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Buna görə də dövlət başçısı təkcə ölkəmiz üçün deyil, ümumilikdə, Cənubi Qafqaz regionu və bütün Türk dünyası üçün mühüm strateji əhəmiyyətə malik olan Naxçıvanın müdafiə qabiliyyətinin artırılması üçün çox mühüm qərarlar qəbul edib: 2013-cü il dekabrın 18-də Naxçıvan Muxtar Respublikasında 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Bununla da, qədim Naxçıvanın müdafiə qabiliyyəti daha da artırılıb, idarəetmə təkmilləşdirilib ki, nəticədə, daha effektiv müdafiə sistemi qurulub.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən deyib: “Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvan Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.

Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrində xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza daha da gücləndirilib, həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji vəziyyətinin yüksəlməsinə səbəb olub.

Bu gün hərbi-strateji cəhətdən əməkdaşlıq etdiyimiz ölkələrin hamısının ekspertləri ən mötəbər beynəlxalq tribunalardan etiraf edirlər ki, Azərbaycan dövləti Qafqazda lider ölkə olduğu kimi, Azərbaycan Ordusu da ən yüksək səviyyədə təchiz olunmuş ordudur. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının müasirləşdirilməsi, Müdafiə Sənayesi Nazirliyinin yaradılması, ordudakı nizam-intizamın gündən-günə möhkəmləndirilməsi, Milli Orduda qabaqcıl Avropa ölkələrinin hərbi quruculuq təcrübəsinin və NATO standartlarının tətbiqi, eləcə də ordu ilə bağlı digər çoxsaylı faktlar bugünkü Azərbaycan həqiqətləri sırasında özünəməxsus yer tutur.

*Naxçıvan Muxtar Respublikasının Əlahiddə Ümumqoşun Ordusu da qədim diyarın etibarlı müdafiə sistemini günümüzün ən yüksək tələbləri çərçivəsində qurub və düşmənə layiqli cavab verməyə tam hazırdır.*

**Rauf ƏLİYEV**

# Sədərəkdəki “N” hərbi hissədə 20 Yanvar faciəsinin ildönümü qeyd olunub



*Əlahiddə Ümumqoşun Ordusunun Sədərək rayonundakı “N” hərbi hissəsində 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə bağlı tədbir keçirilib.*

Tədbiri Əlahiddə Ümumqoşun Ordusunun zabiti, polkovnik Mirqiyas Rüstəmov açıb.

Bildirilib ki, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi xalqımızın müstəqillik uğrunda mübarizliyini nümayiş etdirdi.

Qeyd olunub ki, məhz həmin tarixi günlərdə mənfur ermənilər öz havadarları ilə əlbir olub Sədərək rayonuna da dəfələrlə hücum ediblər. Həmin döyüşlərdə Naxçıvan şəhid verdi, amma düşmənə bir qarış da torpaq vermədi. Bu gün isə Sədərək, eləcə də digər sərhəd məntəqələrimiz Silahlı Qüvvələrimizin yüksək hazırlıqlı bölmələri tərəfindən qorunur.

Tədbirdə Azərbaycan Respublikasının Xalq artistləri Kamran Quliyev, Yasəmən Ramazanova, Həsən Ağasoy, eləcə də Sədərək Rayon Təhsil Şöbəsinin əməkdaşı Əmir İbrahimov çıxış ediblər. Bildirilib ki, 1990-cı il yanvarın 18-dən 25-dək muxtar respublikamızın strateji sərhəd yaşayış məntəqələrindən olan Sədərəyə erməni-rus hərbi birləşmələrinin davamlı hücumları intensiv xarakter alıb. Müasir döyüş silahları ilə hərtərəfli təchiz olunmuş düşmən çox qısa bir vaxtda Sədərəyi işğal etməyi planlaşdırırdı. Qanlı yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə erməni silahlı dəstələrinin hücumları nəticəsində burada ilk şəhidlər verildi. Buna baxmayaraq, muxtar respublika əhalisi səfərbər olaraq Naxçıvanı qoruyub saxladı. Düşmən önündə mərdliklə dayanan naxçıvanlılar qəhrəmancasına mübarizə apararaq bu torpaqlara işğalçıların ayağının dəyməsinə imkan vermədilər. Bu gün isə hər birimiz qürur duyuruq ki, bir zamanlar şəhid qanı ilə suvarılmış bu səngərlər indi Azərbaycan Silahlı Qüvvələrinin ən hazırlıqlı ordu birləşməsi tərəfindən qorunur. İstənilən an və istənilən vəziyyətdə düşmənə layiqli cavab verməyi bacaran əsgərlərimiz indi hər birimizin qürur mənbəyidir.

Tədbirdə mədəniyyət kollektivləri nümayəndələrinin və Sədərək rayon Heydərabad qəsəbə tam orta məktəbinin şagirdlərinin təqdimatında şəhidlərimizə həsr olunmuş mahnı və şeirlər səsləndirilib.

Sonda tədbir iştirakçıları Sədərək kəndindəki Şəhidlər xiyabanını ziyarət ediblər.

**Xəbərlər şöbəsi**



# Şəhidlər xiyabanı
# And yerimiz, qürur mənbəyimiz

***Naxçıvan şəhərində bir ünvan var. O ünvan ki, bizim and yerimiz, həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. Şəhidlərimiz bu ünvanı özləri boyda möhtəşəm, əzəmətli, müqəddəs məzarlığa – Şəhidlər xiyabanına çeviriblər.***

Düz 25 il bundan öncə igid eloğullarımız bir daha sübut etdilər ki, "Torpaq – uğrunda ölən varsa, Vətəndir". Bu amal uğrunda ölümün gözünə dik baxmaq üçünsə insanın qanında azadlıq eşqi, azadlıq duyğuları alovlanmalıdır. Damarlarında axan qan onları doğma yurda bağlamalıdır.

O Qanlı yanvar qırğınını törədənləri tarix də, xalqımız da nifrətlə xatırlayır. Çünki o müdhiş gecədə azğınlaşmış, heç bir mənəvi siması olmayan imperiya bütün iç üzünü göstərdi. Ancaq Azərbaycan xalqının iradəsini, əzmini qıra, azadlıq eşqini söndürə bilmədi. O gün sovet imperiyasının təpədən dırnağa müasir hərbi texnika ilə silahlanmış, azğınlaşmış ordusu fövqəladə vəziyyət elan olunmadan azadlıq istəyən, torpağını, yurdunu canından əziz sevən günahsız bir xalqın üstünə yeridildi. Avtomatlardan, pulemyotlardan yağış kimi güllələr yağdırıldı: Bakı güllələbaran edildi. Nə uşağa, nə qocaya, nə də qadına aman verildi. Guya bununla xalqın gözünün odunu alacaq, onun azadlıq əzmini qıracaqdılar. Lakin imperiyanın şovinist rəhbərləri və respublikamızda onların buyruğu ilə oturub-duran manqurt "havadarları" bir məsələni unutmuşdular. Unutmuşdular ki, bu xalqın Vətəni öz canından artıq sevən milyonlarla övladları var. Və onlar yüksək amalları uğrunda özlərini ölümün ağuşuna atmağı, şəhidlik zirvəsinə yüksəlməyi bacarırlar.

Ölümün gözünə dik baxan belə Vətən övladlarının qəhrəmanlığı bizi müstəqilliyə, azadlığa qovuşdurdu. Daim ehtiramla, böyük minnətdarlıq hissləri ilə xatırlanan şəhidlərimiz xalqımızın qəlbində əbədi yaşayacaqdır. Müxtəlif yaşlarda əbədiyyətə qovuşan igid soydaşlarımız onları görənlərin yaddaşlarında da bu yaşlarda qalıblar. Onlar xalqımıza müstəqilliyimizlə yanaşı, həm də müqəddəs and yerləri – Şəhidlər xiyabanları "bəxş" etdilər. Bu xiyabanlardakı məzarlarda uyuyanlar dünya durduqca qədirbilən xalqımız tərəfindən böyük ehtiram və sonsuz məhəbbətlə yad ediləcəklər.

Budur, Naxçıvan şəhərindəki Şəhidlər xiyabanındayam. Bu ünvan artıq minlərlə insanın ziyarətgahına çevrilib. İctimaiyyətin nümayəndələri, kiçikdən tutmuş böyüyədək hər kəs Şəhidlər xiyabanına üz tutur, Vətənimizin bütövlüyü uğrunda öz canlarını fəda etmiş bu qəhrəman oğulları ehtiramla anırlar. Xiyabandakı Ana heykəlinə baxıram. Mənə elə gəlir ki, bu gün o ana buraya gələn ziyarətçilər qarşısında daha əzəmətlə və qürurla dayanıb. Başını dik tutub şəhid anası. Və buna da haqqı var. Çünki o, Vətəni, torpağı, azadlıq uğrunda əbədilik zirvəsinə ucalmış şəhidimin anasıdır. Onun böyütdüyü oğul düşmənə sipər olub. Bu oğul gənc nəslə örnəkdir. Qəhrəmanlıq məktəbinin gör neçə yetirməsi uyuyur burda – fəxarət yerimiz, qürur mənbəyimiz Şəhidlər xiyabanında.

Hava soyuqdur. Amma məzarlardan boylanan şəhid şəkilləri, o şəkillərdəki çöhrələrdə əks olunan Vətən məhəbbəti qəlbimizi, ruhumuzu isidir; ayaqlarımızı ana torpağa daha möhkəm basmağa çağırır. Başımı qaldırıb səmaya baxıram. Göy üzü tərtəmizdir. 1990-cı illərdəki qara buludlardan əsərəlamət yoxdur. Bu həm də gələcəyə nikbin baxışımızın ifadəsidir. Üçrəngli bayrağımız astaca dalğalanır. Bu isə qələbəyə aparan yoldur. Ana heykəli öz əzəmətilə sanki xiyabana gələnlərə "övladlarımızı yad etdiyiniz, onların əziz xatirəsi qarşısında baş əydiyiniz üçün sağ olun. Nə qədər ki belə igidlərimiz var, Vətən basılmayacaq", – deyir. Bu məzarlar dünyaya gələn yeni nəsillərə onların qəhrəmanlığından danışacaq, bu günlərin qədrini bilməyi tövsiyə edəcək, ürəklərdəki Vətən yanğısını, yurd sevgisini sönməyə qoymayacaq.

✍ Sara ƏZİMOVA

# 20 Yanvar rəsm əsərlərində





1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə xalqımızın qəhrəmanlıq salnaməsi kimi daxil olub. Xalqımız varlığını, məğrurluğu, mətinliyi ilə bir daha sübut etdi. Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da silsilə tədbirlər həyata keçirilir. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda muxtar respublikada fəaliyyət göstərən rəssamların əsərlərindən ibarət "Tariximizin qəhrəmanlıq səhifəsi" mövzusunda rəsm sərgisi təşkil olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək 20 Yanvar faciəsini xalqımızın qürur tarixi kimi qiymətləndirib. Qeyd olunub ki, 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet imperiyasının silahlı qüvvələri Bakıya daxil olaraq dinc əhalini, əliyalın insanları güllələbaran etdi. Bu tarix – 20 Yanvar Azərbaycan xalqının yaddaşına müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi əbədi həkk olunan bir tarixdir. Muxtar respublikada fəaliyyət göstərən rəssamlar şəhidlərimizə diqqət və ehtiram əlaməti olaraq bu mövzuya tez-tez müraciət edir, silsilə əsərlər yaradırlar. Bugünkü sərgidə 20 Yanvar hadisələri rənglərin dili ilə sənətsevərlərimizə təqdim edilir.

Sonra sərgiyə baxış olub. Sərgidə 26 rəssamın 45 rəsm əsəri nümayiş etdirilir.

Xəbərlər şöbəsi

# Düşmən qarşısında mərdliklə dayanan yurd yerimiz: Sədərək

***1988-ci ildən başlanan hadisələr və ya yaddaşlarda əbədi yaşayacaq günlərə qısa ekskurs***

Naxçıvanın coğrafi mövqeyi onun tarixi taleyinə bir çox yaşayış məntəqələrində erməni adlı mənfur düşmənlə qonşuluq qisməti yazıb. Yüz illər boyu özlərinin çirkin əməllərini gah gizlin, gah da aşkarda həyata keçirən daşnakların 1988-ci ildə yenidən üzə çıxan əsassız torpaq iddiaları, bu iddiaların yaratdığı məlum hadisələr sərhəd kəndləri sakinlərinin sərhədçi ömrü yaşamaları ilə nəticələndi. Ata-baba əmanəti olan torpaqlarımızın qorunması, düşmən tapdağına çevrilməməsi üçün bütün Azərbaycan ayağa qalxdı, o ağır illərdə belə, yurd yerlərimiz qəhrəmanlıqla qorundu, "Torpaq – uğrunda ölən varsa, Vətəndir", – deyib səngərlərə atılaraq "Təki Vətən sağ olsun" amalı ilə ölümün gözünə dik baxdı eloğullarımız. Bu mübarizədə sağlamlığını itirən, öz ev-eşiyinə qazi kimi qayıdanlar da az olmadı. Yüzlərlə igidimiz isə şəhidlik zirvəsinə ucaldı. Belə yurd yerlərindən biri ümummilli liderimiz Heydər Əliyevin "Qeyrət qalası" adlandırdığı Sədərək rayonudur.

Məlum hadisələr başlayandan bir qədər sonra – 1990-1993-cü illərdə ermənilər 14 dəfə Sədərəyə hücum ediblər. İlk döyüş 1990-cı il yanvar ayının 18-də olub. Həmin ilin mart ayında ermənilər Sədərəyə 300-ə yaxın top mərmisi atıblar, 500-ə yaxın evi, məktəb binalarını, ictimai-inzibati binaları, sosial obyektləri dağıdıblar. Həmin illərdə muxtar respublikamızın hər yerindən, həmçinin ölkəmizin 14 rayonundan Sədərəyə kömək gəlib. Döyüşlərdə 109 nəfər şəhidlik zirvəsinə ucalıb ki, onların 52 nəfəri rayonun yetirmələri olub.

O illəri xatırlayanda ulu öndərin sözləri yada düşür: "Muxtar respublikanın sərhəd kəndləri dəfələrlə silahlı təcavüzə məruz qalmışdır. Lakin biz hamımız yaxşı bilirik ki, əsas ağırlıq həmişə Sədərəyin üzərinə düşmüşdür. Sədərək kəndində vəziyyət tamam başqadır. Burada əsl müharibə gedib, atışmalar olub".

***Səngərlərdə döyüş gedəndə həyətlərdə təndirlər tüstülənirdi***

Rayonun ağsaqqalları, ziyalıları ilə söhbətimizdə 25 il bundan əvvələ yenidən qayıtdıq. Onlar bizim bilmədiklərimizdən danışdılar. Sədərək kənd 2 nömrəli tam orta məktəbdə baş tutan bu söhbət "Dəyirmi masa" arxasındakı söhbətə çevrildi. Sədərək Rayon Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Təşkilatının sədri Teymur Quliyev:

– O ağır günlərdə səngərlər bizim daimi evimizə çevrilmişdi. Bu "evlər"də müharibə ömrü yaşadıq. Ancaq işimizin haqq işi olduğunu bilirdik. Ona görə də düşmən qabağında bütün sədərəklilər mərdliklə dayandılar.

Teymur müəllim bir məqamı xatırlamaqla söhbətinə davam edir:

– Sədərək hadisələrini izləmiş bir jurnalist kənddə bəzi həyətlərdən tüstü qalxdığını görüb. Fikirləşib ki, müharibənin qanunudur, yəqin əks tərəfdən atılan silahlar düşdüyü yeri yandırır. Əsl həqiqətdə isə o vaxt Sədərəkdə qadınlar səngərdə döyüşən igid eloğullarımıza təndir çörəyi bişirirdilər. Bu, insanların torpağa bağlılığının ən yüksək nümunəsidir. Yaxşı ki, bugünkü gənclərin bu ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır.

Sədərək kənd 2 nömrəli tam orta məktəbin müəllimi Qadir Rəhimov da ağır günləri gözləri ilə görüb. O deyir ki, güllə səslərindən qulaq tutulan, mərmi yağışından həyət-bacaları dağılan Sədərəkdə 1993-cü il avqust ayının 13-də axırıncı döyüşdə ermənilər "Qeyrət qalası"nı qoruyan qeyrətli oğullara bata bilməyəcəklərini yəqin edərək yerlərində oturdular. Sədərək belə qorundu. Bu gün də qorunur. Özü də yüksək səviyyədə – həm torpaq təəssübünü, yurd sevgisini hər şeydən üstün tutan sədərəklilərin, burada xidməti borcunu yerinə yetirən, sərhəddə ayıq-sayıq dayanan əsgərlərimizin hesabına, həm də dövlətimizin böyük qayğısı gücünə. Bu məqamda istər-istəməz ulu Dədə Qorqudun aforizmə çevrilmiş sözlərini xatırlayırsan: "Torpağı qorumursansa, əkib-becərməyinə, əkib-becərmirsənsə, qorumağına dəyməz". Sədərəkdə torpaq həm qorunur, həm də becərilir.

Rayon Təhsil Şöbəsinin əməkdaşı, "Tərəqqi" medallı Əmir İbrahimov söhbətə qoşulur:

– O vaxt rayon ərazisindəki Əyyub mağarası, Cin təndiri, Yetimlər, Həsənqulu bağı, Qaraağac, Qurdbaba, Nadirin düzü kimi ərazilər sədərəklilərin səngərinə çevrilmişdi. İlk düşmən gülləsinə tuş gələn sədərəkli iki qardaş – Malik və Elvin oldu. Hələ məktəbə də getmirdilər. Sədərəklilərin güc aldıqları yeganə qüvvə ulu öndərimiz Heydər Əliyev idi.

Sədərək kənd 2 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Vüsalə Əliyeva:

– Bəhs olunan hadisələr başlayanda 9 yaşım var idi. O illəri uşaq kimi xatırlayıram. Və bu gün dərs dediyim şagirdlərə aşılamağa çalışıram ki, bizim mübarizəmiz haqq işidir. Haqq işi isə həmişə qalib gəlib. Sədərək hadisələri ilə bağlı dərs prosesində, məktəbdənkənar və sinifdənxaric məşğələlərdə söhbətlər aparırıq, inşa-yazı və rəsm müsabiqələri keçiririk. Onu da qeyd edim ki, aidiyyəti fənlərin proqramlarında da bu mövzuya kifayət qədər yer ayrılıb. Hansı fənni tədris etməsindən asılı olmayaraq, bu gün məktəbin bütün müəllimləri bu işdə fəallıq göstərirlər. Odur ki, Sədərəyin məktəbyaşlı ən kiçik şagirdindən tutmuş yuxarı sinif şagirdlərinə qədər hamı Sədərək döyüşlərində şəhidlik zirvəsinə yüksəlmiş eloğullarımız haqqında ətraflı məlumatlara malikdirlər.

Sədərək Rayon İcra Hakimiyyətinin əməkdaşı Samil Kazımov:

– 25 il bundan əvvəl baş verənləri unutmayan sədərəklilərə hərtərəfli dövlət qayğısı hamımızı ürəkdən sevindirir. Ulu öndərimizin həmin illərdə dəfələrlə Sədərəyə gəlməsi, bölgə sakinlərinə tövsiyələrini verməsi təkcə Sədərəyi deyil, bütün Naxçıvanı erməni işğalından qorudu. Bu gündən sabaha ümidləri olmayan sədərəklilər də dahi şəxsiyyətin ətrafında sıx birləşdilər, hər qaranlıq gecənin bir işıqlı gündüzü olacağına inandılar. Bu gün qovuşduğumuz bu işıqlı həyat tərzi məhz Heydər Əliyev ideyalarının işığı hesabına mümkün olub... Bu işığın heç vaxt sönməyəcək ziyası sərhəd bölgəsini daha xoş sabahlara aparır.

"Dəyirmi stol" arxasındakı söhbətdə Sədərəyin hərtərəfli dövlət qayğısı əhatəsində olmasından geniş danışıldı. Söhbət iştirakçıları düşmənə gözdağı olan bu yurd yerinin bu gün müasir rayona çevrilməsindən ağızdolusu bəhs etdilər.

✍ Muxtar MƏMMƏDOV

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Növbədə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 44